# Azərbaycan Xalq Cümhuriyyəti - 100

*Keçmişini öyrənməyən gələcəyini qura bilməz!*
*Tarix təkrarlanır, odur ki, olmuşları öyrənib lazımi nəticə çıxarmaq və bir daha səhv etməmək üçün növbəti mərhələlərdə nəzərə almaq vacibdir!*
*XX əsrin əvvəllərində Azərbaycan xalqı böyük zəhmət və qurbanlar bahasına dövlət müstəqilliyi qazandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu...*
*Ötən əsrin sonlarında qazanılan dövlət müstəqilliyi də eyni aqibəti yaşayacaqdı. Əgər ulu öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdaraq Azərbaycanı parçalanmaqdan, dövlət müstəqilliyini isə məhvolmadan xilas etməsəydi!*
*Uzun əsrlərdən sonra qazanılan və yaşadılan, əbədiliyə çevrilən dövlət müstəqilliyi hər birimiz üçün müqəddəs və əzizdir!*
*Varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli sərəncamı ilə təntənə ilə qeyd edəcəyik.*
*Şərəfli yubileyə hazırlıq dövründə müstəqilliyin özü və sonrakı taleyi ilə bağlı müxtəlif mətbu orqanlarda gedən məqalələrin kiçik bir qismini qəzetimizdə dərc etməklə baş verənlərə yenidən diqqət çəkirik!*
*Oxumaq, bilmək və nəticə çıxarmaq üçün!*

# “ALMAS”

Bakı qəzetələrinin son səhifələrində teatro elanları qismində oxuyuruz: “Nisanın 13-də, 14-də, 17-də, 18-də, 20-də və 21-də “Türk bədaye teatrosu”nda türk səhnəsində ilk dəfə olaraq Cəfər Cabbarlının “Almas” nam 5 pərdə və 10 şəkillik yeni pyesi oynanacaqdır. Bütün səhnə qüvvəti iştirak ediyor...”.

“Almas”ın oynanmaqda olduğunu “Komunist”in mayıs nüsxələrində dəxi oxuyoruz. Və qəzetələr bizə “Almas”ın nədən bu qədər əhəmiyyət və diqqət qazandığını izah edib duruyorlar.

Vaqeə Cəfər bu diqqət və əhəmiyyətə layiq bir dramaturqdur. “Aydın”, “Oqtay”, “Sevil”, “Od gəlini” müəllifi yalnız Azərbaycanda degil, bütün Qafqasyada və bütün Rusiyadakı türklər içində nam və şöhrət qazanmış dəyərli bir sənətkardır. Əsərləri Sovetlərdə yaşayan millətlərin həmən hər lisanına çevrilmişdir. Bunlardan “Sevil” isə filmə belə alınmışdır.

Cəfərin yazdığı əsərlər bir qaç dövrəyə ayrılmaqdadır. İlk dövr hərbiümuminin sonu ilə xitam buluyor. 2-ci dövr İstiqlal ilə başlar və sovet istilasının bugününə qədər davam edər.

Vaxtilə Cəfərin “Od gəlini” əsəri din əleyhindədir - deyə komunistlər tərəfindən 7-ci göyə çıxarılmışdı. Fəqət sonra, bu səhifələrdə qeyd etdiyimiz kibi, “Od gəlini” pyesinin milliyyətçi-trotskiçi bir əsər olduğundan bəhs etdilər.

“Od gəlini” əsərini əvvəlcə mədh, sonra da “ixtilal əleyhdarı” bir əsər deyə tənqid etmiş olan Əli Nazim şimdi 3 başqa arqadaşları ilə birlikdə yazmış olduğu bir tənqiddə (“Komunist”, 22-7-1931) “Almas”ın yeni bir dövr açdığını, məşrutən olsa da, qəbul etməkdədir. “Məşrutən” dedik, çünki komunist tənqidçi, nəzəriyyətçilər “Əsərin idealizm və ufaq burjua məfkurəçiligindən təmizlənməsini” şərt olaraq qoyuyorlar. Bu olunca onlara tam bir komunistcə əsər olacaqmış. Bununla bərabər “Almas” yenə tam yeni bir dövr açmaqda imiş.

Nədən?

Çünki “Almas” Azərbaycanda davam edən kollektivize və ona qarşı köylü sinfinin müqavimətini təsvir etməkdə və bu mücadilə həyatını canlandırmaqdadır.

Komunist tənqidçilər diyorlar ki:

“Almas” pyesi müəllifin yaradıcılığında irəliyə doğru atılmış bir addım sanıla bilir. “Almas” onun yaradıcılıq yolunda yeni bir səhifədir”.

“Əsərdə ayrı-ayrı sima və şəxsiyyətlərin işlənməsində müəllif tərəqqi etmiş ədd oluna bilir. Yaradıcılıq metodu cəhətindən də Cəfərin əsərlərinə xas olan ikibaşçılıq, yəni materyalizm ilə idealizm mücadiləsi bu əsərdə daha aydın və qəti bir şəkil almışdır”.

Tənqidçilərə görə, Cəfərin bu əsərində idealizm əski əsərlərində olduğu kibi qalmaqda ikən materyalizmə olan münasibət daha qüvvətlənmişdir.

Bütün bunlar - tənqidçilərə görə - “Almas” müəllifinin irəliyə doğru atılmış addımlarını göstəriyormuş... Lakin...

İştə komunist tənqidçilər burada duraqlıyorlar.

Əli Nazim, Mehdi, S.Rüstəm və Rəsul Rzaya görə:

Sinif mücadiləsində ya komunistlərlə orqanik surətdə bərabər iştirak etməlidir, yaxud da əleyhdə olmalıdır. 3-cü yol yoxdur və olamaz da. Bu 3-cü yol isə vardır, mövcuddur. Bu yolda olanlar kəndilərinə “sinifxarici”, “bitərəf” v.s. v.s. diyormuşlar.

Əsərin baş qəhrəmanı olub da zəngin köylülərə qarşı mücadilə yürüdən “Almas” bu 3 yola nasıl baxıyor? Və komunistlərin dililə Cəfər bu 3 yoldan hankısını intixab ediyor?

İştə proletar yazıçılarını düşündürən və “Almas” üzərində də əməliyyati cərrahiyyə yapmağı, Almasdan mənəvi qüvvətləri çıxarıb “Maddə” qoymağa sövq edən də budur.

Nasıl düşünməsinlər ki, Cəfər Alması siniflər xarici, fədakar, fövqəlbəşər, insaniyyətpərvər, mədəniyyət simvolu olaraq göstərmişdir (“Komunist”, 22.IV.1931).

Halbuki nə olacaqdı?

Almas yoxsul sinfinə mənsub bir proletar olacaq, komunist olacaq və proletar sinfini təmsilən sosyalizm yolunda zəngin və hallı köylülərə qarşı mücadilə edəcəkdi.

Tənqidçilər diyorlar ki:

“Cəfərin irəliyə atılmış bu addımı həqiqətdə geriyə atılmış iki addımdır. Çünki: Almasda bugünki köylərimiz, kolxoz hərəkatları və bunun ətrafında kəskinləşmiş olan sinif mücadiləsi göstərilməmişdir. Köylərdəki sinfi qüvvətlərin tənasübü təhrif edilmiş, yoxsul, muzdur, ortabab köylülərin rolu çox zəif göstərilmiş, komunist firqəsi, komsomol və köy sovetlərinin rəhbərlik əhəmiyyəti tamamilə pərdələnmişdir.

Buna müqabil köydə qudurğan bir müqavimət göstərən, hər bir vasitədən istifadə edərək kəndi sinfi-iqtisadi mənfəətini müdafiə edən qolçomaq Hacı Əhməd və onun quyruqlarına qarşı əsas mübariz və müsbət qüvvət olan Almas tipi qoyulmuşdur. Nəticədə Almas köydə rəhbər və idarəedici, yeniligin yeganə mümməsili olaraq ortaya atılmışdır”.

Halbuki komunist tənqidçilərə görə, köylərdə qarşı-qarşıya duran “insaniyyətpərvər”, “mədəniyyətçi” Almas ilə istismarçı Hacı Əhməd degil, kapitalizm ilə sosyalizm, proletar ilə kapitalistlər imiş ki, kapitalistlərə qarşı mücadiləyi də komunistlər idarə ediyor. Cəfər Azəri köylərində böylə bir mücadilə, hətta komunist bulamamışdır.

Cəfər baş qəhrəmanı Almasa yüksək və “hakimi-mütləq” mövqeyi vermək üçün komunistlərin və komsomolların əhəmiyyətlərini bilərəkdən heçə endirmiş imiş və buna müqabil Hacı Əhməd başda olmaq üzrə bütün mənfi tipləri qüvvətli və müzəffər çıxarmışdır.

Tənqidçilər bütün bunların səbəblərini şöylə izah ediyorlar:

“Bütün bunların səbəbi onun yaradıcılıq metodunun, dünyagörüşünün mahiyyətindədir. Yuxarıda onun ikibaşlı yaradıcılıq metodunda, idealizmin əvvəlki əsərlərində olduğu səviyyədə qalmadığını və materyalizmin qüvvətləndigini göstərmişdik. Fəqət bundan Cəfər Cabbarlının dialektik materyalizmə yaqlaşdığı mənası çıxarılmasın, çünki: diqqət edilsə görüləcəkdir ki, bütün mənfi tiplər materyalistcə təsvir edildikləri halda, Almas başda olmaq üzrə bütün müsbət şəxsiyyətlər ən adi bir idealist metodu ilə işlənilmişdir”.

Materyalizm ilə idealizm, tənqidçilərə görə, qabili-təlif degildir. Halbuki Cəfər materyalizmi idealizmin hizmətinə verərək, ideal bir “mədəniyyət” dünyası yaratmaq üçün materyalizmi bir vasitə məqamında qullanmışdır.

“Əsərdə hadisələrin siqləti ictimai qüvvətlər degil, şəxsiyyət və fərdi (Almas) bənligi olaraq alınmış, şəxsiyyət ümumiyyətin, cəmiyyətin bir parçası kibi degil, onlardan ayrı, onlara hakim bir vəziyyətə salınmışdır.

Almas idealist dünyagörüşü mümməsilidir...”.

Tənqidçilər Cəfərə “kəndini tərbiyələndirməyi” tövsiyə ediyorlar. Və əlavə ediyorlar ki:

“- O, məfkurəsi və istiqaməti etibarilə kəndini millətə və xalqa rəhbər pişdarı ədd edən, kəndini “mədəniyyət Cəbraili” kibi təqdim eyləyən, işçi sinfi, komsomol və əməkçi köylü kütləsinin quruluşumuzdakı rolunu və komunist firqəsinin rəhbərligini bir növü pərdələmək istəyən kiçik burjua münəvvirlərinin məfkurəsini ifadə etməkdədir”.

Komunist tənqidçilərə görə, Cəfər “Sevil” əsəriylə “Aydın”dan “Almas”a keçmişdir. Fəqət bu da iləri degil, iki addım geriyə dönüş deməkdir. Və bu dönüş ilə “Almas” mühərririnin 2 yol ayrıcında qalmış olduğu qeyd edilməkdə və ona “Komunist” firqəsinə qədər bir sıçrayış yapmasını təklif etməkdədirlər.

Cəfər bunu yapacaqmı? Yaparsa “Almas”ı bir əməliyyati-cərrahiyyəyə tabe tutmaqla yapacaqdır? Yaxud yeni bir “Almas”la bu sıçrayışı yapmaq məcburiyyətində qalacaqdır?

Fəqət nə olursa-olsun, Cəfərin bu yeni əsəri Azərbaycanın yaşamaqda olduğu cəhənnəm həyatı təsbit və təsvir etməsi etibarilə əhəmiyyətini mühafizə edəcəkdir.

Pyesin həftələrlə oynanması əfkari-ümumiyyənin “Almas”ın təmsil etdigi fikirlərlə yaxından əlaqəsini göstərməkdədir.

Sovet tənqidçilərinin hər şeyi olduğu kibi yazmadıqları məlumdur. Bununla bərabər “Almas” bizə Azərbaycan köylərindəki hakim fikrin və qüvvətin nərələrdən və kimlərdən ibarət olduğunu göstərməgə kafi gəlir kibidir.

***M.B.MƏMMƏDZADƏ,***
***“Odlu-Yurd”, həziran (iyun) 1931, № 4 (29)***

*Məşrut - şərtli*
*Təlif - əsər yazma - bəlkə “təliq”dir - yəni “əlaqələndirmə” “bağlama” degildir.*

***P.S.** Məqaləni redaksiyaya professor Şirməmməd Hüseynov təqdim edib*